

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS



www.pq.mia.gov.az

polisazerbaycan

1 aprel 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 12 (3525)


# Prezident İlham Əliyev Bakıda 4 saylı DOST Mərkəzinin açılışında iştirak edib






Martın 30-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Binəqədi rayonu, Ziya Bünyadov prospektində yerləşən 4 saylı DOST Mərkəzinin açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı mərkəzin binasında yaradılan şəraitlə tanış olub.

Əmək və Əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mərkəzdə görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.

Bildirilib ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan agentliyin sayca 4-cü DOST Mərkəzində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial




Ekspertiza sahələri üzrə bütövlükdə 132 xidmət göstəriləcək.

Mərkəzdə 230 nəfərdən çox əməkdaş, habelə “Könüllü DOST” proqramı üzrə 50 nəfər könüllü gün ərzində orta hesabla 800 vətəndaşın qəbulunu həyata keçirəcək.

“DOST” Mərkəzinin tərkibindəki “Çağrı Mərkəzi” ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. “ART School” - “İnklüziv İncəsənət Məktəbi” isə ildə orta hesabla 150-200 əlilin təlimlərdən keçməsinə imkan verəcək. Bütün bunların dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması kimi sosial islahatlar proqramının əsas hədəflərinin real müstəviyə uğurla proyeksiya olunduğu vurğulanıb.

O da diqqətə çatdırılıb ki, indiyədək DOST mərkəzlərində xidmət göstərilən 330 mindən çox şəxsin məmnunluq dərəcəsi 97,2 faiz təşkil edir.

Binəqədi rayonunda, yeddi min kvadratmetr ərazini əhatə edən 4 saylı DOST Mərkəzinin fəaliyyətə başlaması da bu prosesə mühüm töhfə verəcək, daha geniş miqyasda keyfiyyətli sosial xidmətlərin həyata keçirilməsinə imkan yaradacaq.

## DAXİLİ İŞLƏR NAZİRİ SIRA BAXIŞI KEÇİRİB

### *General-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərə tövsiyələrini verib*

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov martın 19-da respublikanın şəhər və rayon polis orqanlarında vakant olan Post-Patrul Xidmətinin polis nəferi vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**



Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən Nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, Nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 160 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Qeyd edək ki, onlardan 57 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş gənclər olub.

Tədbirdə çıxış edən general-polkovnik Vilayət Eyvazov onları Novruz bayramı münasibətilə təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayaraq daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, öz üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib.

## Azərbaycan Respublikası Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətlərinin məlumatı

2021-ci il mart ayının 29-da saat 23:40 radələrində polis əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbiri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində və odlu silah gəzdirməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə ağır cinayətlərə görə məhkum olunmuş Vüsal Səmədov idarə etdiyi “Saipa” markalı avtomobillə paytaxtın Yasamal rayonu ərazisində saxlanılarkən hakimiyyət nümayəndəsi olan polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq müqavimət göstərməklə idarə etdiyi nəqliyyat vasitəsini polis əməkdaşlarının xidməti istifadəsində olan iki avtomobilə vuraraq, hadisə yerindən qaçmağa cəhd göstərmişdir.

Polis əməkdaşları tərəfindən qanunsuz əməllərin qarşısını almaq məqsədi ilə dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, Vüsal Səmədovun hakimiyyət nümayəndələrinə itaətsizlik göstərməsinə davam etməsi səbəbindən, polis əməkdaşları xidməti silahdan havaya xəbərdarlıq atəşi açdıqdan sonra həmin avtomobilin təkərinə və arxa qapısına atəş açaraq avtomobilin dayandırılmasına nail olmuşlar.

Sürücü Vüsal Səmədov və sərnişinlər - əvvəllər dəfələrlə məhkum olunmuş Abid İsmayılov və Əmrah Əhmədov saxlanılmışlar.

Avtomobilə keçirilən baxış zamanı satış məqsədi ilə saxlanılan narkotik vasitə hesab edilən 26 bükümdə heroin və metamfetamin aşkar olunaraq götürülmüşdür.

Hadisə nəticəsində polis əməkdaşlarının xidməti avtomobillərinə ciddi ziyan dəymiş, şübhəli şəxs qismində saxlanılan Əmrah Əhmədov güllə yarası alaraq xəstəxanaya yerləşdirilmiş, hazırda vəziyyəti qənaətbəxşdir.

Faktla bağlı Cinayət Məcəlləsinin 315 (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə), 234.4.1 (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 234.4.3 (külli miqdarda törədildikdə) maddələri ilə cinayət işi başlanmışdır.

İş üzrə prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmaqla, istintaqın aparılması prokurorluq orqanlarına həvalə edilmişdir.

# Nə tarixdən silinəcək, nə də biz unudacağıq

**Soyqırım – etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsidir.**




1813-1828-ci illər soyqırımımıza və tarixi torpaqlarımızdan deportasiyalarımıza yol açan illərdir.

1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabından sonra Bakı quberniyasında da hakimiyyəti ələ keçirən Stepan Şaumyan azərbaycanlıların qətlinə, sözün əsl mənasında, fərman verdi. Dilinə, dininə, milli kimliyinə görə deyil, insanlar məhz azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirildilər.

**XX əsrin əvvəllərində-1905-1906, 1918 və 1920-ci illərdə törədilmiş soyqırımlar.**

Təxmini hesablamalara görə, Mart soyqırımı zamanı Bakıda 15-20 min, Şamaxıda 7 min, Qubada isə 6 min nəfər öldürülmüşdür. Salyan, Nəvahi, Lənkəran, Kürdəmir kimi rayonlarda da qırğınlar törədilmiş, onminlərlə soydaşımız erməni vəhşiliyinin qurbanı olmuşdur.

1918-ci il mart qırğınına siyasi qiymət vermək, tarixi həqiqətləri üzə çıxarmaq üçün Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılmış Fövqəladə İstintaq Komissiyası fəaliyyətini başa çatdıra bilməmişdir. Çünki qırmızı ordu tərəfindən şərqin ilk cümhuriyyəti işğal olunmuşdur.

**XX əsrin ortalarında-1948-1953-cü illərdə soyqırım və deportasiyalar.** 1943-cü ildə Tehranda keçirilən konfransda ermənilər İranda yaşayan ermənilərin Sovetlər Birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri Molotova müraciət edirlər. Bu məsələdə Stalinin razılıq verməsi faktiki olaraq azərbaycanlıların 1948-1953-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiya olunmasının əsasını qoydu.

**XX əsrin sonunda soyqırım, deportasiya və 1988-ci il hadisələri.** 1988-ci ildən başlayaraq yenidənqurma, aşkarlıq prosesi antiazərbaycan əhval-ruhiyyəsinin və ərazi iddialarının yeni dalğasını yaratdı. Quqarkda baş verən qanlı hadisələr nəticəsində öldürülən 70 nəfər azərbaycanlıdan 21-i qadın, 6-sı uşaq idi. Vardenis (Basarkeçər) rayonunda isə 40 nəfər öldürülür. Ermənistanın digər rayonlarından – Yerevan, Masis (Zəngibasar), Kalinino (Uzunoba), Kadjaran, Qafan, Kirovakan (Calaloğlu), Qoris, Sisian (Qarakilsə), Amasiya (Ağbaba) və Allahverdidən 250 min azərbaycanlı öz ev-eşiyindən qovulur. 1948-53-cü illərdə olduğu kimi İttifaqın mərkəzi hakimiyyətinin qərarları ilə azərbaycanlı qaçqınların Qarabağda yerləşdirilməsinə icazə verilmir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

30 dekabr 2009-cu ildə Azərbaycan Prezidenti İlham Əliyev erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarını və təcavüz siyasətini, qanlı cinayətlərini dünya ictimaiyyətinə çatdırmaq, soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədi ilə Quba şəhərində "Soyqırım Memorial Kompleksi"nin yaradılması haqqında sərəncam imzalayıb. 2013-cü il sentyabrın 18-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Quba Soyqırımı Memorial Kompleksinin açılışını ediblər.

Başımıza gətirilən faciələr bədii ədəbiyyatda da öz əksini tapıb. Qurban Səidin "Əli və Nino" və Lev Vaysenberqin "Kiçik bacı" romanları Mart soyqırımından bəhs edən bədii əsərlərdəndir. Mart soyqırımı ilə bağlı "Həqiqətin özü", "Mart hadisələri, yaxud qara oyunlar" filmləri çəkilib.

*"Polis"*

# Müraciətlərə həssaslıqla yanaşılır

## *Vətəndaş məmnunluğu üçün xidmət vəzifə borcuna sədaqətdir*

**İllərin və nəsillərin sınağından başıuca, alnıaçıq çıxan polis vətəndaşların sevgisini, sayğısını qazanıb, onların güvəncinə çevrilib. Bu elə də asan başa gəlməyib. Sabitliyi etibarlı qoruyaraq, köməyə ehtiyacı olanların imdadına yetişərək, həyatlarını riskə atıb həyat qurtararaq, sıralarından şəhidlər verərək qazanıb bu adı, bu nüfuzu qanun qoruyucuları...**




Sədaqətli xidmət, Vətənə, xalqa sevgi həmkarlarımızın fəaliyyətinin qayəsini təşkil edir. Odur ki, vəzifə öhdəliklərini layiqincə yerinə yetirən asayiş keşikçilərinin peşəkar fəaliyyətini görüb, qiymətləndirənlər ünvanımıza təşəkkür məktubları göndərir, minnətdarlıqlarını bildirirlər. Vətəndaşların müraciətləri DİN rəhbərliyi tərəfindən nəzarətə götürülür, həll olunması üçün müvafiq tədbirlər görülür.

Birinci və İkinci Qarabağ müharibəsi veteranı Vüqar Xudiyevin oğlunun xidmətə qəbul edilməsi ilə bağlı xahişinə DİN rəhbərliyi tərəfindən müsbət cavab verilib və oğlu Yevlax Rayon Polis Şöbəsinə xidmətə qəbul olunub.

Vətən savaşının qazisi Nicat Əliyevin daxili işlər orqanlarında xidmət etmək arzusunda olduğunu yazan Şirvan şəhər sakini Elxan Əliyevin istəyi nəzərə alınıb. Oğlu N.Əliyev artıq Şirvan Şəhər Polis Şöbəsində vəzifəsinin icrasına başlayıb.

Vətəndaş Zəminə Qarayevanın da oğlunun daxili işlər orqanlarında xidmətə qəbul olunması ilə bağlı müraciətinə aidiyyəti üzrə baxılıb və Tural Qarayev Suraxanı RPİ Post-Patrul Xidməti bölüyünə polis nəfəri vəzifəsinə təyin edilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Fədakarlığı və igidliyi xatirələrdə yaşayacaq...



**Müharibə hər bir xalq üçün ən ağır sınaqdır və Azərbaycan xalqının da taleyinə müharibə acıları yazılıb.**

**Tariximizdə silinməz izlər qoyan Qarabağ müharibəsi zəfərimizlə başa çatdı. Qalib xalq, qalib ordu, Müzəffər Ali Baş Komandan ərazi bütövlüyümüzə diş qıcıyanlara elə bir dərs verdi ki, bu uzun illər onların yaddaşından silinməyəcək.**



Hərbi zəfərimizlə başa çatan Vətən müharibəsində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid olan 66 nəfər hərbi qulluqçusundan biri də **baş leytenant Mustafayev Təhmasib Sərməst oğludur.**

O, 30 avqust 1989-cu ildə Cəbrayıl rayonunun Hasanlı kəndində doğulub.

1993-cü ilin avqust ayının 23-də Cəbrayıl rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra Mustafayevlər ailəsi də didərgin düşüb.

Təhmasib 2007-ci ildə Kürdəmir rayonunun Topalhəsənli kəndindəki Vahid Əhmədov adına tam orta məktəbi bitirib.

O, 2008-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların Naxçıvan Muxtar Respublikasındakı "N" saylı hərbi hissəsində xidmət keçib. 2009-cu ilin oktyabr ayında ehtiyata buraxılıb.

Həyatını rəğbət bəslədiyi hərbçi peşəsinə bağlamaq barədə qərar verən Təhmasib 2010-cu ilin aprel ayının 14-dən etibarən Daxili Qoşunların sıralarına qayıdıb. Lənkəran rayonundakı "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin tərkibində AQS-17 qumbaraatanı heyətinin komandiri vəzifəsinə təyin edilib. Xüsusi təyinatlı kimi qarşıya qoyulan tapşırıqların icrasında əzmkarlıq və çalışqanlıq göstərib.

19.12.2011 - 06.04.2012-ci illərdə Təhmasib Jandarm Komando Məktəbləri və Təlim Mərkəzində jandarm gizir komando təməl kursunu keçib. Hərbi qulluqçumuz qardaş ölkədə, həmçinin, sualtı dalğıc proqramı üzrə təlimi bacarıqla başa çatdırıb.

2012-2014-cü illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təhsil alıb.

2014-cü ilin iyulunda Daxili Qoşunların Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissəsinin patrul taborunda taqım komandiri vəzifəsinə irəli çəkilib. 2015-ci ilin aprel ayında həmin hərbi hissədə komendant bölüyündə taqım komandiri vəzifəsinə keçirilib. 2016-cı ilin dekabrında isə ona hərbi hissənin xüsusi təyinatlı dəstəsində atəş təminatı qrupunun komandiri vəzifəsi etibar olunub.

Baş leytenant T.Mustafayev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qoşunların "N" saylı hərbi hissəsinin xüsusi təyinatlısı kimi iştirak edib. Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənib.

Hərbçimiz Cəbrayıl rayonu ərazisində gecə vaxtı hərəkət edən hərbi avtomobillərimizin minalanmış sahəyə daxil olmasının qarşısını alaraq təhlükəsiz yerə istiqamətləndirib.

Döyüş yoldaşları deyir ki, 2020-ci il noyabrın 4-də Şuşa-Laçın yolu üzərindəki yüksəkliyin müdafiəsində dayanan zaman baş leytenant T.Mustafayev yaralı döyüşçülərimizin olduqları postlara özünü yetirib, onlara ilk yardım göstərilməsini təşkil edib. Ancaq düşmənin mövqelərimizi minaatanlardan şiddətli atəşə tutması nəticəsində şəhid olub.

Şəhid hərbi qulluqçumuz 11.11.2020-ci il tarixdə Biləsuvar rayonunda yerləşən, cəbrayıllı məcburi köçkünlərin məskunlaşdıqları qəsəbənin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15.12.2020-ci il və 29.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə baş leytenant T.Mustafayev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 28.12.2020-ci il tarixli əmri ilə baş leytenant T.Mustafayev ölümündən sonra 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə mükafatlandırılıb.

Təhmasibin Faidə adlı qız övladı bizlərə yadigar qalıb.

Tezliklə Cəbrayıl və işğaldan azad edilən digər rayonlarımız bərpa olunacaq, soydaşlarımız öz yurdlarına qayıdacaqlar. Bu qayıdış üçün canlarını qurban vermiş şəhidlərimizin xatirəsi daim ehtiramla anılacaq. Vətən torpağında şərəfli iz qoymaq, elin yaddaşında unudulmamaq əbədi yaşamaq deməkdir.

*Yalçın Abbasov*

# Xeyli sayda silah-sursat aşkar edilib





**İşğaldan azad edilmiş ərazilərdə düşmənin atıb qaçdığı silah-sursatların aşkar edilməsi istiqamətində profilaktiki tədbirlər davam etdirilir.**



Şuşa Rayon Polis Şöbəsinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının birgə keçirdikləri növbəti belə tədbir zamanı şəhər ərazisindən 1 pulemyot, 5 avtomat, 1 qumbaraatan, habelə 31 növ qumbara, 14 mərmi, 18 avtomat darağı, 2628 müxtəlif çaplı patron və digər silah-sursat aşkar edilib.

Tədbirlər Laçın rayonunda da həyata keçirilib. Rayon Polis Şöbəsinin əməkdaşları düşmənin Xocavənd rayonu ərazisindəki tərk edilmiş mövqelərindən "İQLA" zenit raket kompleksi, "MUXA" markalı tank əleyhinə qumbaraatan, pulemyot, avtomat, 6 əl qumbarası, 64 mərmi, 19 avtomat darağı və 1100 ədəd müxtəlif çaplı güllələr taparaq aidiyyəti üzrə təhvil veriblər. RPŞ-nin əməkdaşları Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində isə xeyli sayda mina aşkar ediblər. Dərhal bu barədə Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) əməkdaşlarına məlumat verilib. Əraziyə baxış keçirilən zaman müxtəlif adda tank və piyada əleyhinə 78 ədəd mina və partladıcıları müəyyən edilib.

# Erməni vandalizmi xarici jurnalistlərin gözü ilə...

## *Polisin də xidməti diqqət mərkəzindədir*





**Xocalı soyqırımına həsr olunmuş “Sonsuz dəhliz” filminin müəllifi litvalı jurnalist, ictimai xadim Riçardas Lapaitis bugünlərdə çəkiliş qrupu ilə birlikdə erməni işğalından azad olunmuş torpaqlarımızda olub.**

O, ölkəmizə gəlişinin səbəbi barədə sosial səhifəsində özlərini bütün dünyada "mədəni xalq" kimi tanıdan ermənilərin işğaldan azad edilmiş Azərbaycan ərazilərindəki vandalizmi haqqında yeni bir sənədli film çəkmək istədiyini qeyd edir. “Dünya, nəhayət, həqiqəti öyrənməli və ermənilərin hərbi cinayətlərinə göz yummamalıdır.



Çünki cəzasızlıq hökm sürəndə, özbaşınalıq yaranır”, - deyə jurnalist yazır.

Riçardas Lapaitis dağıntıların miqyasına görə dünyada həm də “Ruhlar şəhəri” kimi tanınan Ağdamda çəkilişlərə başlayıb.

Qarabağda xidmət edən polislər də onun maraq dairəsindədir, çəkdiyi şəkillərdə həmkarlarımızın xidməti əks olunur. Əcnəbi jurnalist ərazilər minalardan təmizlənmədiyinə görə mülki şəxslərin girişini məhdudlaşdıran polis postlarını və ərazidə təhlükəsizliyə cavabdeh olan asayiş keşikçilərinin xidmətini fotoaparatın yaddaşına köçürüb.

Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə düşmənin atıb qaçdığı və ya müxtəlif yerlərdə gizlətdiyi silah-sursatların polis əməkdaşları tərəfindən aşkar edilməsi istiqamətində də tədbirlər davam etdirilir. Bölgəyə səfər edən xarici jurnalistlər də bunun şahidi olurlar.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# ANDINA SADİQ QALANLAR

## *Qazimiz döyüş xatirələrini bizimlə bölüşür*

**44 gün davam edən və torpaqlarımızın azadlığı ilə nəticələnən “Dəmir yumruq” əməliyyatında - Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da əzmlə vuruşmuş, böyük qəhrəmanlıq nümunələri göstərmişlər.**

Vətən müharibəsi qazimiz, baş çavuş Elnur Cəfərov 1990-cı ildə Kürdəmir rayonunun Qarasaqqal kəndində doğulub. Orta təhsilini kənd tam orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2008-2009-cu illərdə Daxili Qoşunların Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən “N” saylı hərbi hissəsində keçib. 2013-cü ilin iyun ayından qoşunların Gəncə şəhərindəki “N” saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu yerinə yetirib.



Hərbi hissənin ayrı-ayrı bölmələrinin tərkibində müxtəlif vəzifələrdə xidmətini davam etdirən baş çavuş E.Cəfərov 2020-ci ilin iyun ayından yaralandığı günədək xüsusi təyinatlı dəstədə istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı vəzifəsində xidmət edib.

Xidmət etdiyi dövrdə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (hazırda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi) Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu uğurla bitirib. İstehkamçı yarımqrupunun komandiri kimi qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiyinə, eləcə də yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə fərqləndiyinə görə hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılan baş çavuş E.Cəfərov Kəlbəcər, Füzuli və Cəbrayıl istiqamətində aparılan hərbi əməliyyatlarda fəal iştirak edib: “İlk döyüşümüz 2020-ci il sentyabrın 27-də Kəlbəcər istiqamətində olub. Dörd gündən sonra Füzuli və Cəbrayıl ərazisində gedən döyüş əməliyyatlarına qatıldıq. Burada bir sıra kəndlərin və yüksəkliklərin azad edilməsində yaxından iştirak etdik. Bundan əlavə, ermənilərin Cəbrayıl şəhəri ətrafındakı bir neçə möhkəmləndirilmiş postunu darmadağın edib, ələ keçirdik”.

Olduqları mövqelərin düşmən tərəfindən artilleriya və müxtəlif çaplı silahlardan atəşə tutulması nəticəsində altı güllə və səkkiz qəlpə yarası aldığını qeyd edən qazimiz sonda ən böyük arzusuna çatdığı üçün qürur duyduğunu deyir: “Oktyabrın 6-sı, saat təxminən 05:00-da Cəbrayıl istiqamətində baş verən şiddətli döyüşdə ağır yaralandım. Sanitarlar ilkin tibbi yardım göstərərək, qanaxmanı dayandıra bildilər. Şiddətli atışma getdiyindən, təxliyyə olunmam mümkün deyildi. Digər yaralı yoldaşlarım kimi, düşmənə qarşı vuruşduq. Beş saatdan sonra bizi döyüş meydanından təxliyyə etdilər. Əvvəlcə Silahlı Qüvvələrin Bakıdakı Mərkəzi Kliniki Hospitalına, sonra isə Daxili Qoşunların Hərbi Hospitalına gətirdilər. Burada hər iki ayağımdan və bel nahiyəmdən əməliyyat olundum. Həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunub. Lakin tam sağalmağım üçün ambulator müalicəmi indi də davam etdirirəm”.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Cəfərov Elnur Fəqani oğlu “Cəsur döyüşçü” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Abşeron rayonu ərazisində Yardımlı rayon sakini Z.Əliyevdən 46,119 qram heroin, 27,290 qram metamfetamin, kirayədə yaşadığı Müşfiqabad qəsəbəsindəki evə baxış zamanı isə 8 kiloqram 67,5 qram heroin, 2 kiloqram 440,7 qram metamfetamin, 2 kiloqram 603,9 qram tiryək, 2 kiloqram 200 qram marixuana və 2300 ədəd metadon həbi aşkarlanaraq götürülmüşdür.

◆◆◆

**NBPİ-nin Su Nəqliyyatında Polis İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Ağdaş şəhər sakini, əvvəllər məhkum olunmuş A.Hüseynovdan “AK-74” markalı silah, 1 ədəd patron darağı və 29 ədəd patron götürülmüşdür.

◆◆◆

**Xəzər RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Masallı rayon sakini A.Ağabalayevin Xətai rayonundakı kirayədə yaşadığı mənzilə baxış zamanı oradan 1 kiloqram 147 qramdan artıq heroin, 72 qramdan artıq tiryək və 14 qramdan artıq metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Suraxanı RPİ 31-ci PB-nin** əməkdaşları tərəfindən xuliqanlığa görə əvvəllər məhkum olunmuş Y.İbiyevin ətrafında aparılmış tədbirlər zamanı onun yaşadığı evə baxış keçirərkən oradan 1 kiloqram 110 qrama yaxın heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Cəlilabad rayon sakini Z.Ağayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 5 qramdan artıq tiryək aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun Cəlilabad şəhərində yaşadığı evin həyətinə baxış zamanı əlavə 2 kiloqram 90 qrama yaxın heroin, “VZOR-70 CAL766” markalı tapança və 16 ədəd patron götürülmüşdür.

◆◆◆

**Cəlilabad RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Saatlı rayon sakini, əvvəllər məhkum olunmuş İ.Zeynalovun idarə etdiyi “BMW” markalı avtomobilə baxış zamanı ona və sərnişinləri - həmyerliləri M.Məmmədova və X.Nuriyevə məxsus 12 kiloqram 390 qram heroin, 1 kiloqram 150 qram tiryək və 1 kiloqram 100 qram metamfetamin, o cümlədən 2 ədəd bıçaq, 2 ədəd dəyənək və 1 ədəd balta aşkarlanaraq götürülmüşdür.

◆◆◆

**İmişli RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində martın 30-da Bəhrəmtəpə qəsəbəsi ərazisində soyğunçuluq yolu ilə qəsəbə sakini G.Şahverənovanın içərisində 2500 manatını, qızıl-zinət əşyalarını və sənədləri olan çantasını talamaqda şübhəli bilinən həmyerlisi V.Quliyev müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən E.Quliyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə onun Nərimanabad qəsəbəsindəki evinə baxış zamanı oradan 1 kiloqram 555 qram heroin və 510 qram metamfetamin götürülmüşdür.

# Hadisə yeri nə üçün mühafizə edilir?

**Hadisə yerinin polis üçün nə qədər əhəmiyyətli olduğu az-çox hamıya bəllidir. Yəqin ki, hər kəs ən azı izlədiyi filmlərdə hadisə baş verən ərazıyə giriş-çıxışın qadağan edildiyini bildirən xüsusi lentlərin çəkilməsi səhnələrini izləyib. Polis üçün bu prosedur ona görə vacibdir ki, kənar müdaxilə istintaq-əməliyyat qrupunun və mütəxəssislərin fəaliyyətinə maneəçilik törədə, istintaq üçün əhəmiyyət kəsb edən izləri itirə və nəticə etibarı ilə cinayətin bağlı qalmasına şərait yarada bilər.**

Polisə görə cinayətin izlərini daşıyan vacib informasiya “məkanı” hadisə yeri sayılırsa, bu, media nümayəndələri üçün isə bütövlükdə informasiyadır. Buna görə də, adətən, asayiş keşikçiləri ilə jurnalistlər məhz hadisə yerində qarşılaşırlar. Təbii ki, hər iki peşə təmsilçilərinin burada özlərini qanun çərçivəsində aparmaları, bir-birlərinin hüquq və vəzifələrini bilmələri ictimaiyyətin məlumatlandırılmasına, cinayətkarlığın profilaktikasına və cinayətlərin açılmasına xidmət edir.



Ancaq bəzən cinayət baş verən ərazidən nəyin bahasına olursa-olsun operativ məlumat vermək istəyən jurnalistlər həm qanunu, həm də özlərinin peşə fəaliyyətini tənzimləyən davranış normalarını pozur, peşəkarlıq meyarlarını həmkarlarını qabaqlamaq istəyinə, tələskənliyə qurban verirlər. Sosial medianın populyarlaşdığı indiki zamanda isə buna daha təcrübəsiz, mövcud qanunlar barədə elementar təsəvvürü olmayan həvəskarlar və ya mobil telefonu ilə çəkdiyi görüntüləri dərhal sosial şəbəkələrdə paylaşan vətəndaşlar da qoşulub. Nəticədə cinayət qurbanlarının cəsədləri, ağır xəsarət alanların faciəvi vəziyyətləri belə nümayiş etdirilir və bununla da zorakılıq, qəddarlıq təbliğ olunur, insanlar psixoloji basqıya məruz qalır.

Məhz bu təsirlərin önünə keçmək üçün xəbər əldə etmək, onu operativ şəkildə çatdırmaq istəyən jurnalistdən ilk növbədə peşəkarlıq tələb olunur. Hadisə yerində olan jurnalist faktı işıqlandırarkən qanunverciliyin və səlahiyyətli qurumun nümayəndəsi kimi polis əməkdaşlarının tələblərinə sözsüz riayət etməlidir.

Mövzunun aktuallığını nəzərə alıb kiçik bir araşdırma apardıq. Məlum olduğu kimi, “Hadisə yerlərinə KİV-lərin buraxılması və çəkiliş aparması məsələləri barədə” DİN rəhbərliyinin 26 iyul 2012-ci il tarixli müvafiq sərəncamı var. Məhz bu kimi məsələlərin həlli sözügedən sənəddə öz əksini tapır. Eləcə də daxili işlər orqanları əməkdaşlarının kütləvi informasiya vasitələri ilə əməkdaşlıq etmələri üçün hazırlanmış tövsiyələri, video-çəkilişlərin aparılması qaydalarını həmkarlarımız, xüsusən də xidmətə qəbul olunan gənc əməkdaşlarımız diqqətdə saxlamalıdır.

Biz bu sənədlərdəki iki vacib məqamı xüsusilə qeyd etməyi lazım bilirik. Əvvəla, nəzərə almaq lazımdır ki, hadisə yerinə baxışda iştirak etməyən şəxslər, o cümlədən kütləvi informasiya vasitələrinin nümayəndələri həmin əraziyə yalnız istintaq-əməliyyat qrupu rəhbərinin icazəsi ilə buraxılırlar. İkincisi, zorakılığın və qəddarlığın qanunvericiliklə qadağan olunmuş təbliğinə yol verməmək üçün hadisə yerlərində cinayət nəticəsində xəsarət almış insanların, həlak olmuş şəxslərin meyitinin çəkilişinə məhdudiyyət qoyulur.

Ümumilikdə, polis media ilə münasibətlərə xüsusi önəm verir. Bu həm DİN rəhbərliyinin polisin fəaliyyətinin şəffaf, cəmiyyət üçün açıq olması ilə bağlı prinsipial mövqeyindən irəli gəlir, həm də kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqələrin ictimai asayişin mühafizəsinə və cinayətkarlığın profilaktikasına müsbət təsirindən qaynaqlanır. Odur ki, ictimaiyyətlə əlaqələrin daha da genişlənməsi üçün daxili işlər orqanları tərəfindən həyata keçirilən tədbirlər, baş verən kriminal hadisələr barədə KİV-ə gündəlik məlumatlar verilir, sosial şəbəkələrdəki səhifələrimizdə paylaşılır.

Bu da onu deməyə əsas verir ki, hadisə yerində operativ informasiya əldə etmək naminə bütün peşəkarlıq meyarlarını gözardı etmək, məlumat əldə edib yaymaq hüququna istinad edən hər bir şəxsə, jurnalistə mötəbərlik gətirmir, gətirməz də.

*“Polis”*

# ŞƏHİD AİLƏLƏRİNƏ EHTİRAM GÖSTƏRİLİR

## Həmkarlarımız Novruz bayramını şəhid yaxınları və qazilərlə qeyd ediblər











Polis əməkdaşları torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların ailələrini və qaziləri evlərində ziyarət edib, Novruz bayramı münasibətilə onları təbrik ediblər.

Şəhidlik zirvəsinə ucalan oğullarımızın, qazi olan qəhrəman hərbçilərimizin yaxınları ilə Mingəçevir, Şuşa, İsmayıllı, Ucar, Beyləqan, Tərtər, Qazax, Tovuz, Ağstafa, Xaçmaz, Qax, Siyəzən, Xızı, Quba Rayon Polis şöbələrinin və Beyləqan Rayonlararası Mühafizə Şöbəsinin əməkdaşları görüşüblər.

Həmkarlarımız görüşlərdə şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edib, qazilərimizin səhhətilə maraqlanıblar. Vətən müharibəsində ordumuzun qüdrətindən, qəhrəman oğullarımızdan danışan həmkarlarımız onların mərdliyi və şücaəti sayəsində torpaqlarımızın işğaldan azad edildiyini xüsusilə vurğulayıblar. Qeyd edilib ki, onların döyüş yolu gələcək nəsillərdə də iftixar hissi doğuracaq. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçənlərin xatirəsini və adını uca tutmağın, onların doğmalarına, ailə üzvlərinə qayğı göstərməyin mənəvi borc olduğu diqqətə çatdırılıb.

Şəhid doğmaları və qazilər onlara göstərilən qayğıya görə təşəkkür ediblər.

**Redaksiyamıza ünvanlanan məktublarda polisin xilaskarlıq missiyasını görüb qiymətləndirənlərin asayiş keşikçilərinə olan hörmət və ehtiramı boy verir.**

Halı pisləşmiş şəxsə yardım edən polis əməkdaşı... Polisə rəğbət hissi ilə baxan insanlar... Bəlkə də həmin insanlar polisin hər gün onlarla belə hadisə ilə üzləşdiyindən xəbərsizdirlər.

Hadisə şahidlərindən birinin çəkdiyi şəkillə birlikdə redaksiyamıza göndərdiyi məktubda bu fikirlər yer alıb: "Nizami küçəsində gəzərkən qəflətən halı pisləşən və huşunu itirən xanıma ərazidə xidmət aparan polis əməkdaşı özünü anındaca yetirdi. Düzü, bu elə ani baş verdi ki, hər birimiz heyrət içində qaldıq. Polis əməkdaşı adını sonradan öyrəndiyimiz Nərgizi oturacağa əyləşdirib su içirdi, dərman qəbul etməsinə yardımçı oldu. O, bronxial ast-

# Minnətdarlıq hissi ilə...



ma xəstəliyindən əziyyət çəkdiyini asayiş keşikçisinə dedi və ona göstərdiyi köməkliyə görə minnətdarlığını bildirdi.

Öyrəndik ki, Nərgiz Tibb universitetinin III kurs tələbəsidir. Onun: "Gələcəkdə polislər kimi mən də içdiyim anda sadiqlik nümayiş etdirəcək, vətəndaşların xidmətində duracağam",-deyərək polislə birgə köməyə tələsənlərə söylədiyi fikirləri isə heç zaman unutmayacağıq"...

# Üz cizgilərinin sirri

### Müasir üztanıma sistemləri cinayətkarlıqla mübarizədə son elmi nailiyyət hesab olunur

**Hər gün küçədə, ictimai nəqliyyatda, marketdə hər hansı bir cinayəti törətməkdə şübhəli bilinən şəxslə və ya şəxslərlə qarşılaşa bilərik və bəlkə qarşılaşırıq da.**

Yəni gündəlik həyatda adi insan cinayət hadisəsinin şahidi və yaxud zərərçəkən olmasa, cinayətkarı "görmür", xarici görünüş şəxsin cinayətə meyilli olub-olmadığı barədə küçədə heç kəsə "ip ucu" vermir. Yalnız təcrübəli, peşəkar əməliyyat müvəkkili, istintaq aparatının əməkdaşı cinayətkarı üz cizgilərindən, hərəkətindən tanıya bilər və yaxud şübhələnər.

Əgər bunu hamı bacarsaydı, yəqin ki, tez-tez təsadüf olunan soyğunçuluq və cibgirlik cinayətləri ümumiyyətlə olmazdı, hər kəs təhlükəli adamı əvvəlcədən tanıyar və ondan uzaq gəzərdi. İnsanlar uzaqbaşı gecə küçədə daha ehtiyatlı olur, qaranlıq blokda kənar şəxsdən çəkinir, onunla eyni liftə minmir və s. Yəni hər kəs ənənəvi qorunma instinktinə sahibdir, ancaq bu tədbirlər yalnız ehtimal edilən təhlükəyə qarşı görülür, əminlikdən qaynaqlanmır.

Tarixdə ilk dəfə çinlilərin insanın xarakterini üz cizgilərindən oxumağa çalışdıqları məlumdur. Yaranması nə az, nə çox - eramızdan üç min il bundan əvvələ gedib çıxan üz oxuma elmi (fizionomiya) az qala 5 min ildir ki, ilk baxışdan yaxşı insanla, pis insanı ayırd etməyə çalışır. Bu elmə görə, insanın üzündə mövcud olan göz, qaş, alın, çənə, dodaq, yanaq, qulaq, burun istər ayrı-ayrılıqda, istərsə də birlikdə psixoloji mənalar daşıyır və insan şəxsiyyətinin anlaşılmasında mühüm rola malikdirlər.

İllər sonra asiyalıların üz cizgilərinə görə cinayətkarı uzaqdan müəyyən etmək nəzəriyyəsini avropalılar mənimsədi və kompüter texnologiyasının materialına çevirib "üz tanıma sistemləri" yaratdılar. Hazırda bu sistemlər cinayətkarlıqla, xüsusilə terrorizmə qarşı mübarizədə ən son nailiyyət hesab olunur.

Biometrik üz tanıma sistemi necə işləyir? Qısaca qeyd edək ki, iri şəhərlərdə, əhalinin sıx olduğu yerlərdə quraşdırılan kameralara "Üz tanıma" proqramları yüklənir və kamera adamların fotosunu çəkir. Daha sonra şəkil mərkəzi kompüterə ötürülür, burada axtarışda olan və cinayətdə iştirak edənlərin foto-çəkilişləri toplanılır. Çəkilən fotolar müntəzəm olaraq mərkəzdəki fotolarla qarşılaşdırılır, eyniləşdirilir. Avtomatik olaraq həyata keçirilən prosedur cəmi bir neçə dəqiqə çəkir. Bundan sonra sistem axtarışda olan şəxsi taparsa, dərhal həyəcan siqnalı verir və polis naryadı kameranın şübhəlini qeydə aldığı yerə istiqamətləndirilir.

Bir neçə il bundan əvvəl aparılan araşdırmalara görə, Amerika Federal Axtarış Bürosunun (FBI) bazasında 117 milyon adamın belə foto "kolleksiyası" var. Bu ölkənin bəzi ştatlarında hətta şəxsiyyət və sürücülük vəsiqələrində olan şəkillərin eyniləşdirmə prosesinə cəlb edilməsinə icazə verilir. Çox məşhur sosial şəbəkələrin də insanların şəxsi məqsədləri üçün çəkdikləri fotoları depoladığı barədə məlumatlar dolaşır və tənqid olunur.

Cinayətkarlıq və terrorla mübarizədə üztanıma sistemləri, bayaq qeyd etdiyimiz kimi, ən son uğur sayılır və effektiv istifadə olunur. Yeri gəlmişkən qeyd edək ki, ölkəmizdə də "Təhlükəsiz Şəhər" Avtomatlaşdırılmış İdarəetmə Mərkəzinin kameraları vasitəsilə kütlə içərisindən şübhəli şəxsin tanınıb, seçilməsi mümkündür.

Beləliklə, 5 min il keçəndən sonra uzaq məsafədən cinayətkarları təsbit etmək,tanımaq mümkün olur.

*Rəşad Mehtiyev*




Türkiyənin "BİYOTEKSAN" şirkətinin (biometrik cihaz qayırma) istehsal etdiyi yeni barmaq izləri tanıyan yeni biometrik sistemi Türkiyə Daxili İşlər Nazirliyinin istifadəsinə verilib.

Bu sistemə barmaq izlərinin tanınması, biometrik sənədlərin hazırlanması, onların oxunması və s. eyni təyinatlı avadanlıqların milli istehsalı daxildir. Milli biometrik cihazların geniş tətbiqi sayəsində dövlət qurumlarında və özəl sektorda vahid sistem formalaşacaq.

❖❖❖

***Avstriyanın Daxili İşlər Nazirliyi ölkə sərhədlərinin mühafizəsində dronlardan istifadəni genişləndirməyə hazırlaşır. İstifadəsinə ötən il başlanan dronlara bu yay daha 23 ədədi əlavə ediləcək, 2023-cü ildə isə onların ümumi sayı 90-a çatdırılacaq.***

***Avstriyanın daxili işlər naziri bu barədə məlumat verərkən, ilkin olaraq dövlət büdcəsindən bu məqsədlə iki milyon avro vəsaitin ayrıldığını bildirib. Qeyd edilib ki, həmin sərhəd xidmətində 18 drondan istifadə edilsə də, onlar daha çox sərhədyanı ərazilərdə nəqliyyat hərəkəti və qəzaların qeydə alınması üçün tətbiq edilir.***

***Yeni dronlar isə istilik kameraları, məsafə ölçən texnologiya, gecəgörmə kameraları və sərhəd nəzarəti üçün tələb olunan digər texniki üstünlüklərlə təchiz olunacaq. Bununla da sərhəd ərazilərində qeyri-leqal miqrasiya fəaliyyətinə qarşı mübarizə güclənəcək. Dronlardakı istilik kameraları yollarda hərəkət edən yük maşınlarında qeyri-qanuni miqrant daşınmasını da aşkar edə biləcək.***

***Bildirilib ki, bu ilin mayında Xorvatiya, Rumıniya və Bolqarıstanın daxili işlər nazirləri ilə bu sahədə birgə fəaliyyəti dərinləşdirmək üçün konfrans keçiriləcək.***

❖❖❖

Avropa İttifaqı məkanında yol hərəkətinin təhlükəsizliyi barədə məlumatların təhlilinə əsasən əminliklə demək olar ki, 2020-ci il bu mənada ən uğurlu il olub. Əlbəttə, ölüm hallarının yollardan daha çox COVID-19 xəstələrinin yerləşdirildiyi klinikaların reanimasiya şöbələrində baş verməsini "uğurlu" hesab etmək olarsa.

Avropa Statistika Agentliyinin məlumatına görə, keçən il alman polisi yollarda baş vermiş bədbəxt hadisələrin sayının bir il əvvəlki illə müqayisədə 15,6 faiz azalmasını qeydə alıb. Bu mənada koronavirus pandemiyası ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin statistikasına çox müsbət təsir göstərib.

Qəzaya düşmüş uşaqların sayı 16,2 faiz azalıb. Bəzi federal əyalətlərdə isə belə qəzalarla bağlı heç bir uşağın həlak olması qeydə alınmayıb. Yük avtomobillərinin, motosiklet və piyadaların iştirakı ilə qəzaların sayı da azalıb, amma velosipedçilərin iştirakı ilə yol-nəqliyyat hadisələrinin sayı 3,6 faiz artıb. Bu da aydındır: ictimai nəqliyyatın hərəkətinə qoyulan məhdudiyyətlər səbəbindən almanların çoxu velosipedlə hərəkət etməyə başlayıb. Halbuki bu adamların bir qismi əvvəllər velosiped sürməyib.

*C.Natiq*

## Mart ayının 24-dən 30-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 191 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 38 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 145, o cümlədən borclu şəxs qismində axtarışda olan 61 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 5 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 5 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 137 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik